# SMART business

Microsoft Dynamics 365 Business Central

# SMART LOCALIZATION

## Təkmilləşdirmə qeydləri buraxılışı v. 2026.01

SMART Apps

Nəşr olunub

**Məxfilik Bildirişi:** Bu sənəd məxfidir və kommersiya xarakterli məxfi məlumatları, həmçinin SMART business şirkətinin əqli mülkiyyətini ehtiva edir. Nə bu sənəd, nə də burada olan hər hansı məlumat SMART business şirkətinin əvvəlcədən yazılı razılığı olmadan heç bir halda çoxalda və ya açıqlana bilməz. Nəzərə alın ki, bu sənədin və buradakı məlumatın açıqlanması, surətinin çıxarılması, yayılması və ya istifadəsi qəti qadağandır.

# Mündəricat

**1.** Giriş hissəsi ........ 3

**2.** SMART Batch Fixed Asset Accounting təkmilləşdirilməsi ........ 4

**3.** SMART IFRS16 Leasing təkmilləşdirilməsi ........ 5

**4.** SMART Cash Flow təkmilləşdirilməsi ........ 6

**5.** SMART Payroll Connector for HiBob təkmilləşdirilməsi ........ 7

**6.** SMART Employee Self-Service təkmilləşdirilməsi ........ 9

**7.** SMART FX Rates təkmilləşdirilməsi ........ 10

**8.** Sistemin təkmilləşdirilməsi proseduru ........ 11

**9.** SMART Localization təkmilləşməsi üzrə şərtlər və qaydalar ........ 12

# 1. Giriş hissəsi

Sənəd növbəti müntəzəm təkmilləşdirmə 2026.01-a daxil olan SMART Localization həllinin funksionallığında təkmilləşdirmələri və dəyişiklikləri təsvir edir. Təkmilləşdirməyə 01.10.25 tarixdən 31.12.25 tarixə qədər olan dövr üçün funksionallıq dəyişiklikləri daxildir.

## Məsuliyyətin məhdudlaşdırılması

Bu sənədin məzmunu yalnız məlumat üçündür və dərc olunduğu tarixdə SMART business MMC-nin mövzu ilə bağlı nəzər nöqtəsini əks etdirir. Bu sənəd və onun məzmunu SMART business MMC-nin öhdəliyi deyil və öhdəlik kimi təfsir edilməməlidir. SMART business MMC bu sənəddə olan hər hansı məlumatın düzgünlüyünə zəmanət vermir.

## Müəllif hüquqları haqqında xəbərdarlıq

Müəllif hüququ ilə bağlı bütün qanunlara riayət etmək istifadəçinin məsuliyyətidir. Bu sənədin məzmunu SMART business MMC-nin müəllif hüquqlarıdır. Müəlliflik hüququnun sahibi kimi SMART business MMC-nin hüquqlarını məhdudlaşdırmadan, bu sənədin heç bir hissəsi çoxaldıla, saxlanıla və ya axtarış sisteminə daxil edilə, yaxud hər hansı formada və ya hər hansı üsulla (elektron, mexaniki, surətçıxarma, qeyd, və ya başqa şəkildə) və ya hər hansı məqsədlə, yaxud SMART business MMC-nin açıq rəsmi yazılı icazəsi olmadan hər hansı digər işə və ya nəşrə daxil edilə bilməz. Bu sənədin çıxarışlarını şəxsi istifadəniz üçün köçürə bilərsiniz.

SMART business MMC bu sənədin mövzusu ilə bağlı patentlərə, patent müraciətlərinə, ticarət nişanlarına, müəllif hüquqlarına və ya digər əqli mülkiyyət hüquqlarına malik ola bilər. SMART business MMC-nin hər hansı ayrıca yazılı lisenziya müqaviləsində açıq şəkildə nəzərdə tutulmuş hallar istisna olmaqla, bu sənədin təqdim edilməsi Sizə bu patentlərə, ticarət nişanlarına, müəllif hüquqlarına və ya digər əqli mülkiyyətə heç bir lisenziya vermir.

© 2026 SMART business. Bütün hüquqlar qorunur. Burada qeyd olunan faktiki şirkətlərin və məhsulların adları onların müvafiq sahiblərinin ticarət nişanları ola bilər.

# 2. SMART Batch Fixed Asset Accounting təkmilləşdirilməsi

Təkmilləşdirmə qeydlərinə aşağıdakı təkmilləşdirmələr, yeni funksional imkanlar və səhvlərin düzəlişləri daxildir:

| Ölkə Kodu | ID | Məzmun | Funksional sahə | Dəyişiklik növü |
|---|---|---|---|---|
| **CORE** | #91181 | Azqiymətli əsas vəsaitlərin yaradılması zamanı uçota ilkin baxışında yaranan xəta aradan qaldırıldı. | SMART Batch FA | Bugfix |
| **CORE** | #95828 | Azqiymətli əsas vəsaitin (child) əvvəlki istismara verilmə əməliyyatı ləğv edildikdə, onun yenidən istismara verilməsi imkanı əlavə edilib. | SMART Batch FA | New feature |

# 3. SMART IFRS16 Leasing təkmilləşdirilməsi

Təkmilləşdirmə qeydlərinə aşağıdakı təkmilləşdirmələr, yeni funksional imkanlar və səhvlərin düzəlişləri daxildir:

| Ölkə Kodu | ID | Məzmun | Funksional sahə | Dəyişiklik növü |
|---|---|---|---|---|
| **CORE** | #89073 | İcarənin bitmə tarixi dəyişdirildiyi hallarda əsas vəsait kartında amortizasiyanın bitmə tarixinin yenilənməsi funksionallığı əlavə edildi. | SMART IFRS16 Leasing | New feature |
| **CORE** | #89988 | İcarənin natamam ayı olduqda icarə hesablamasının formalaşdırılması düzəldildi. İcarənin son ayının hesablamaları gözlənilən icarə müddətinə (kəsr hissəsi) uyğun olaraq formalaşır. | SMART IFRS16 Leasing | Bugfix |
| **CORE** | #92084 | İcarə şərtlərində heç bir dəyişiklik olmayan dövr üçün istifadə hüquqlarının hesablanması düzəldildi. Yeniləmədən əvvəl məbləği 0 olan maliyyə jurnal sətirləri yaradılırdı, indi isə jurnal sətirləri artıq yaradılmır. | SMART IFRS16 Leasing | Bugfix |
| **CORE** | #92674 | İcarə şərtləri dəyişdirildikdə, uzunmüddətli öhdəliklərin düzgün əks etdirilməsi üçün əsas vəsaitlərin balans dəyərinin hesablanması yenilənmişdir.<br>Belə ki, balans dəyəri cari dövrün əvvəlinə öhdəliklərin balansı ilə əvvəlki bağlanmış dövrün sonuna öhdəliklərin balansı arasındakı fərq kimi müəyyən edilir. | SMART IFRS16 Leasing | Bugfix |

# 4. SMART Cash Flow təkmilləşdirilməsi

Təkmilləşdirmə qeydlərinə aşağıdakı təkmilləşdirmələr, yeni funksional imkanlar və səhvlərin düzəlişləri daxildir:

| Ölkə Kodu | ID | Məzmun | Funksional sahə | Dəyişiklik növü |
|---|---|---|---|---|
| **CORE** | #89403 | Sifariş üzrə qismən göndərişlər və qəbullar zamanı hesab-fakturaların uçota alınması üçün müqavilə üzrə kreditor/debitor borcları planının qeydlərinin və qrafiklərinin yaradılması funksionallığı genişləndirilib. | SMART CashFlow | New feature |
| **CORE** | #90891 | "İş vərəqəsi sətirlərini təklif et" səhifəsindən istifadə edilərkən və mənbə növləri Alış sifarişi və Satış sifarişi olan qeydlər üçün "Pul vəsaitlərinin hərəkəti tarixini yenidən uaz" xanası doldurulduqda Pul vəsaitlərinin hərəkəti tarixi xanasının yenilənməməsi problemi aradan qaldırıldı. | SMART CashFlow | Bugfix |
| **CORE** | #90469 | Pul vəsaitlərinin hərəkəti proqnozu kartına "Yalnız buraxılmış sənədləri təklif et" keçidi əlavə edilib.<br>Bu keçiddən istifadə edildikdə, müqavilə kartında və ya təchizatçı/müştəri kartında ödəniş planı doldurulmayıbsa, sistem "Buraxılmış" və ya "Avans ödəniş gözlənilir" statuslu, hələ uçota alınmamış alış/satış sənədləri üzrə pul vəsaitlərinin hərəkəti jurnal sətirlərini formalaşdırır.<br>Keçid söndürüldükdə isə sistem bütün statuslu sənədlər üzrə jurnal sətirlərini formalaşdırır. | SMART CashFlow | New feature |
| **CORE** | #90892 | Pul vəsaitlərinin hərəkəti əməliyyatları kitabına "Əl ilə bölüşdürülmüş əməliyyat" adlı yeni göstərici əlavə edilib. Bu göstəricinin dəyəri "Bəli" olaraq təyin edilən əməliyyatlar üçün məlumatların yenilənməsi imkanı bloklanıb. | SMART CashFlow | New feature |

# 5. SMART Payroll Connector for HiBob təkmilləşdirilməsi

Təkmilləşdirmə qeydlərinə aşağıdakı təkmilləşdirmələr, yeni funksional imkanlar və səhvlərin düzəlişləri daxildir:

| Ölkə Kodu | ID | Məzmun | Funksional sahə | Dəyişiklik növü |
|---|---|---|---|---|
| **CORE** | #90824 | SMART Payroll HRIS Integration Core tətbiqi üçün yeni proseslər yaradılıb və mövcud funksionallıq genişləndirilib:<br>• Fiziki şəxs haqqında məlumat: HRIS əməkdaş kartının Ümumi bölməsinə yeni xanalar əlavə edilib: Ailə vəziyyəti növü, Ana dili, Vətəndaşlıq ölkəsi/region kodu<br>• HRIS əməkdaş kartının Sənəd bölməsinə yeni xanalar əlavə edilib: Fiziki şəxs sənədinin növü, Sənədin qüvvədə olma tarixi<br>• Ünvan haqqında məlumat: HRIS əməkdaş kartının Ünvan bölməsinə yeni xanalar əlavə edilib: Rayon, İnzibati kateqoriya, Küçə, Ev, Korpus, Mənzil<br>• Qohumlar haqqında məlumat: Yeni Əməkdaşın qohumları bloku yaradılıb, bu blok vasitəsilə əməkdaşın qohumları haqqında məlumat xarici sistemdən inteqrasiya edilə bilər. Həmçinin, Fiziki şəxsin qohumları standart məlumat cədvəlində qohumlara dair məlumatların yaradılması və yenilənməsi üçün yeni proses yaradılıb.<br>• Faktiki ünvan haqqında məlumat: HRIS əməkdaş kartında yeni Faktiki ünvan bloku yaradılıb, bu blok vasitəsilə əməkdaşın yaşayış ünvanı haqqında məlumat xarici sistemdən inteqrasiya edilə bilər. Həmçinin, fiziki şəxsin daimi ünvan məlumatlarını yaratmaq və yeniləmək üçün yeni proses yaradılıb.<br>• Əlillik haqqında məlumat:HRIS əməkdaş kartında yeni Əlillik bloku yaradılıb, bu blok vasitəsilə əməkdaşın əlillik məlumatları xarici sistemdən inteqrasiya edilə bilər. Həmçinin, Fiziki şəxsin tibbi məlumatları bölməsində əlillik məlumatlarının yaradılması və yenilənməsi üçün yeni proses | SMART Payroll Connector for HiBob | New feature |

| | | | | |
|---|---|---|---|---|
| | | yaradılıb. Əgər əməkdaş işə qəbuldan sonra əlil olarsa, o, əlillik göstəricisi olan vəzifəyə keçirilir.<br>• İş haqqında məlumat: HRIS əməkdaş kartının İş bölməsinə yeni xanalar əlavə edilib: Menecer kodu, Sınaq müddətinin tamamlanması, Sınaq müddəti formulu<br>• Təkrar işə qəbul: HRIS əməkdaş kartının İş bölməsinə yeni Təkrar işə qəbul xanası əlavə edilib. Əgər xarici sistemdə əvvəllər işdən azad olunan əməkdaş yenidən işə qəbul olunursa, bu xana doldurulmalıdır. Həmçinin, əvvəllər işdən çıxarılmış əməkdaşların yenidən işə qəbulu üçün yeni proses yaradılıb. | | |

# 6. SMART Employee Self-Service təkmilləşdirilməsi

Təkmilləşdirmə qeydlərinə aşağıdakı təkmilləşdirmələr, yeni funksional imkanlar və səhvlərin düzəlişləri daxildir:

| Ölkə Kodu | ID | Məzmun | Funksional sahə | Dəyişiklik növü |
|---|---|---|---|---|
| **CORE** | #90897 | Out of Office sətrindən daxil olunduqda My Vacation Balance səhifəsində "Actual" düyməsini aktivləşdirmək üçün yeni seçim əlavə edilib. | SMART Employee Self-Service | New feature |

# 7. SMART FX Rates təkmilləşdirilməsi

Təkmilləşdirmə qeydlərinə aşağıdakı təkmilləşdirmələr, yeni funksional imkanlar və səhvlərin düzəlişləri daxildir:

| Ölkə Kodu | ID | Məzmun | Funksional sahə | Dəyişiklik növü |
|---|---|---|---|---|
| **CORE** | #89418 | Business Central-də valyuta məzənnələrinin yenilənməsini avtomatlaşdıran, maliyyə komandalarının işini asanlaşdıran və çoxvalyutalı mühitdə maliyyə məlumatlarının ardıcıllığını təmin edən SMART FX Rates adlı yeni həll dərc edilib.<br><br>SMART FX Rates xarici məlumat provayderləri ilə problemsiz inteqrasiyanı təmin edir və açıq API təqdim edən mənbələrdən — o cümlədən Avropa Mərkəzi Bankı (ECB), OANDA və digər uyğun provayderlərdən — valyuta məzənnələrinin birbaşa sistemə yüklənməsini dəstəkləyir. Bu isə bütün sistem üzrə əl ilə müdaxiləyə ehtiyac olmadan ardıcıl və aktual valyuta məlumatlarını təmin edir. | SMART FX Rates | New feature |

# 8. Sistemin təkmilləşdirilməsi proseduru

Sistemin təkmilləşdirilməsi iki mərhələdən ibarətdir:

- Kodun təkmilləşdirilməsi
- Məlumatların təkmilləşdirilməsi

Kodun təkmilləşdirilməsi iki versiyanın mətn birləşməsi ilə həyata keçirilən, obyekt dəyişikliklərinin buraxılışdan müştəri bazasına köçürülməsidir.

Məlumatların təkmilləşdirilməsinə yeni buraxılışda məlumat sxemi dəyişdirdikdə və ya yeni parametrlər olduqda mövcud məlumatların dəyişdirilməsi aiddir. Məlumatların təkmilləşdirilməsi prosedurunun başlanması zamanı kod yeniləndikdə mövcud məlumatlar avtomatik olaraq dəyişdirilir. Yeni modulların sazlanması əl ilə həyata keçirilir.

# 9. SMART Localization təkmilləşməsi üzrə şərtlər və qaydalar

1. SMART business (bundan sonra "Şirkət" adlandırılacaq), Microsoft Dynamics Tərəfdaş Lokalizasiya və Tərcümə Lisenziyalaşdırma Proqramında (PLLP) müəyyən edilmiş tələblərə və məhdudiyyətlərə uyğun olaraq SMART Lokalizasiya həllini (bundan sonra "Həll" adlandırılacaq) inkişaf etdirir və təkmilləşdirir.
2. Hər rübün ilk iş günü Şirkət Həll təkmilləşdirmələrini dərc edir. Sonradan Şirkət təkmilləşdirmələrin buraxılış tezliyini dəyişdirmək hüququnu özündə saxlayır.
3. Həllərin təkmilləşdirmələri Microsoft dəstək müddəti mərhələsində olan bütün Microsoft Dynamics NAV və Microsoft Dynamics 365 Business Central məhsul versiyaları üçün aktiv abunəsi olan Şirkətin müştərilərinə ödənişsiz əsasda təqdim olunur. Proqram məhsulunun bitmə dövrünü yoxlamaq üçün [https://support.microsoft.com/en-us/lifecycle/search](https://support.microsoft.com/en-us/lifecycle/search) ünvanına keçin.
4. Müştərinin sisteminin təkmilləşdirməsi təkmilləşdirmə cədvəllə, həmçinin müştəri sistemlərinə təkmilləşdirmələrin köçürülməsi, o cümlədən parametrlərin təkmilləşdirilməsi və sistemin sınaqdan keçirilməsi üzrə işlərin həcmi əvvəlcədən razılaşdırılmaqla həyata keçirilir və növbəti versiyanın buraxılışından gec olmayaraq başa çatdırılmalıdır. Təkmilləşdirmənin təxmini buraxılış cədvəli 3 ayda bir dəfədir. Təkmilləşdirmə əvvəlcədən qarşılıqlı razılaşma əsasında 3 aya təxirə salına bilər.
5. Sistemin müştəri tərəfindən müstəqil təkmilləşdirilməsi imkanı da nəzərdə tutulub. Bu məqsədlə, Şirkət məlumatların təkmilləşdirilməsi üçün parametrlərin və skriptlərin yenilənməsi ilə bağlı tövsiyələr daxil olmaqla, təkmilləşdirmələri təmin etməlidir. Lakin, qeyd etmək lazımdır ki, sistemin müştəri modifikasiyaları təkmilləşdirmənin mənbə kodu ilə uyğun gəlməyə bilər və nəticədə sistemin təkmilləşdirilməsi və ya yerinə yetirilmiş modifikasiyası düzəliş edilməlidir.
6. Şirkət 4-cü bəndə uyğun olaraq aktiv abunələri olan və müntəzəm yeniləmələri həyata keçirən müştərilər üçün Həll səhvlərini pulsuz olaraq düzəldəcək.
7. Şirkət hər bir təkmilləşdirmədə dəyişikliklərin ətraflı təsvirini təqdim etməli və onu təkmilləşdirmənin buraxıldığı tarixdən gec olmayaraq dərc etməlidir.
8. Qanunvericilikdəki diapazondan kənar yeniləmələr və ya diapazondan kənar xətaların düzəldilməsi, təkmilləşdirmə buraxılışlarının tezliyindən asılı olmayaraq müştərilərə təqdim edilir.
9. 3-cü bəndə uyğun olaraq Microsoft-un dəstəyinin əsas müddətinə daxil edilməyən sistemin "köhnəlmiş" versiyaları və ya aktiv abunəsi olmayan müştərilər üçün Həllin tam və ya fərdi funksionallığının təkmilləşdirməsi Şirkət tərəfindən müvafiq qaydada həyata keçirilir, nəzərə alaraq ki, belə bir təkmilləşdirmə xüsusi olaraq belə müştəri üçün hazırlanmışdır və nəticədə belə müştəriyə ödənişli əsasda təqdim edilə bilər.
10. Bu müddəa və şərtlərdən hər hansı bir kənarlaşma razılaşma şəklində sənədləşdirilməlidir, əks halda bu şərtlər tətbiq edilir.